# "Qarabağ" üçüncü dəfə pley-offda

**Ağdamın "Qarabağ" klubu UEFA Çempionlar Liqasının 3-cü təsnifat mərhələsində cavab oyununa çıxıb. İlk matçda Bakıda Bolqarıstan "Ludoqorets"inə 1:2 hesabı ilə uduzan Qurban Qurbanovun komandası həmin məğlubiyyətin əvəzini səfərdə artıqlaması ilə çıxıb. Görüş ağdamlı futbolçuların 7:2 hesablı qələbəsi ilə başa çatıb. Bununla da, "Qarabağ" Çempionlar Liqasının pley-offuna vəsiqə qazanıb. Bu mərhələdə rəqib Xorvatiyanın "Dinamo"(Zaqreb) klubu olacaq.**

**UEFA Çempionlar Liqası**
**3-cü təsnifat mərhələsi, cavab oyunu**

"Ludoqorets" (Bolqarıstan) - **"Qarabağ" (Azərbaycan)** - 2:7 (İlk oyun - 2:1)

***Qollar:*** Juninyo, 7 (0:1), Kvadvo Dua, 13 (1:1), 23-pen. (2:1), Yassin Benzia, 45+1-pen. (2:2), Patrik Andrade, 45+5 (2:3), Toral Bayramov, 93 (2:4), Redon Cica, 110 (2:5), Patrik Andrade, 112 (2:6), Yassin Benzia, 118 (2:7)






Möhtəşəm nəticədir. "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanovun istədiklərini futbolçular cavab matçında həyata keçirməyi bacardılar. Matçın gedişatında zədələnən Yankoviç və Veşoviçin əvəzinə meydana daxil olan Patrik Andrade və Matehus Silva topun mərkəzdə qalmasına və sağ cinahda sürətli oyuna imkanlar yaratdılar. "Qarabağ" ilk növbədə psixoloji, sonra isə fiziki olaraq "Ludoqorets"i üstələdi.

Əslində, Bakıdakı ilk oyunda da Bolqarıstan çempionu qeyri-adi heç nə etməmişdi. Müdafiədə oturaraq imkan düşdükcə sürətli hücumlara qoşulmağa çalışmışdı. Hücumlarının effektiv alınması isə futbolçularının sırf fərdi ustalığının yüksək olması idi. Halbuki əlində bu cür futbolçuları olan klub oyunboyu dominantlıq da edə bilərdi. Amma "Qarabağ"ın gücü rəqibi fərqli oyun anlayışı seçməyə məcbur etmişdi.

"Ludoqorets"də qapıçı ilə mərkəz müdafiəçiləri arasında koordinasiya zəif olduğundan uzaqdan zərbələr çox önəmli idi. İlk hissədə mərkəz müdafiəçilərinə edilən basqı öz nəticəsini verdi. Çünki rəqibin mərkəz müdafiəçiləri edilən pressinqdən sonra çətin vəziyyətə düşürdülər. Juninyo bu imkandan yararlandı və Avropa səviyyəsində güclü hücumçu olduğunu növbəti dəfə nümayiş etdirdi.

Eyni zamanda uzaqdan endirilən zərbələr də bu qarşılaşmada öz bəhrəsini verdi. Patrik Andrade və Toral Bayramov möhtəşəm qollarla yadda qaldılar.

Əsas məsələ Ağdam klubunun qapıçısı Fabyan Buntiçin oyuna qoşulmamasıdır. Şahruddin Məhəmmədəliyev topu oyuna müdafiəçi kimi daxil etməyi bacarır, sanki meydan oyunçusuna çevrilirdi. Buntiç isə "ancaq çərçivədə səni xilas edə bilərəm, başqa heç nə istəmə" görüntüsünü verirdi. Bu isə komandanın qarşıdakı oyunlarda mənfi tərəflərindən biri kimi diqqətə alınmalıdır.

"Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov komandasının 7:2 hesablı qələbəsini belə şərh edib: "Startda hesabı açsaq da, sonra demək olar ki, heç nədən qapımızda standart vəziyyətdən iki qol gördük. Bəlkə də rəqibin ən üstün cəhəti olan əks-hücumlarda bir qədər diqqətsiz olduq. Amma get-gedə oyunu ələ almağı bacardıq. Matçdan əvvəl də futbolçularla söhbətimiz olmuşdu ki, sona qədər soyuqqanlı və oyunun içində olmaq çox vacibdir".

O qeyd edib ki, futbolçularına ancaq əhsən düşür: "Azarkeşlərimizi, Azərbaycanımızı təbrik edirəm. Qalibiyyət öz yerində, amma ümumən bu cür oyunlar futbolçularımızı böyüdür, klub olaraq böyüyürük, daha xarakterli oluruq. Futbol daha da sevilir. Əsas da azarkeşlərdə adrenalin görəndə buna şad oluram. Bu gün sanki bir triller idi. Bu, mənim "Qarabağ"ım idi, Azərbaycanın "Qarabağ"ı idi".

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 15 avqust, (№173).- S.12.